# “Vətən şəhidləri ilə ucalır” adlı sərgi təşkil olunmuşdur

Azərbaycan İstiqlal Muzeyində 20 Yanvar faciəsinin 26-cı ildönümünə həsr olunmuş “Vətən şəhidləri ilə ucalır” adlı sərgi təşkil olunmuşdur. Sərgidə Vaqif Mustafazadə adına 2 saylı uşaq incəsənət məktəbi və Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi şagirdlərinin 40-a yaxın rəsm əsəri nümayiş etdirilmişdir. 20 Yanvar şəhidi İlham Allahverdiyevin şəxsi əşyaları qardaşı Elxan Allahverdiyev tərəfindən muzeyə təhvil verilmişdir.

Tədbirdə Azərbaycan İstiqlal Muzeyinin direktoru Fəridə Şəmsi, 20 Yanvar şəhidi İlham Allahverdiyevin qardaşı Elxan Allahverdiyev, Vaqif Mustafazadə adına 2 saylı Uşaq İncəsənət Məktəbinin direktoru Akif Süleymanov, 20 Yanvar şəhidi Fərizə Allahverdiyevanın anası Bağdaxanım ana çıxış etmişdir. Sonra Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi şagirdlərinin hazırladığı bədii kompozisiya və 20 Yanvar faciəsinə həsr olunmuş filmlər nümayiş olunmuşdur.

Tədbirdə 20 Yanvar Cəmiyyətinin, 20 Yanvar şəhidlərinin ailə üzvləri, Vaqif Mustafazadə adına 2 saylı uşaq incəsənət məktəbinin, Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin, P.Nəzərov adına 20 saylı orta məktəbin şagirdləri, Respublika Gənc Turizm və Diyarşünaslıq Mərkəzinin nümayəndələri, Milli Qvardiyanın, Daxili Qoşunların əsgərləri, Dövlət Təhlükəsizlik Xidməti Akademiyasının tələbələri və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

***“Azərbaycan”***